**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№344/1** **31 may 2022-ci il**

**2022-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı barədə**

Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 5.1-ci “2022-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması” bəndinin icrası ilə əlaqədar Palatanın Kadr hazırlığı idarəsi (E.Behbudova) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış 2022-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “2022-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki:

2.1. iki həftə müddətində 2022-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının Palatanın üzvlərinə çatdırılması təmin edilsin;

2.2. iki həftə müddətində təsdiq edilmiş proqrama müvafiq olaraq auditorların ixtisasartırma kursunu aparacaq fiziki və (və ya) hüquqi şəxslər Müsabiqə Komissiyası ilə birlikdə müəyyən edilsin;

2.3. cari ilin 10 avqust tarixinədək 2022-ci il üzrə auditorların ixtisasartırma kursunu tədris edən müəllimlərdən tədris materiallarının və ədəbiyyat siyahısının əldə olunması təmin edilsin.

3. Bu qərarın və “2022-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramı”nın mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**